**İqtisadiyyat nazirinin**
**"11" avqust 2016-cı il tarixli**
**F-92 nömrəli əmri ilə**
**təsdiq edilmişdir.**

**Sənaye parklarının və məhəllələrinin nailiyyətlərinin qiymətləndirilməsi**
**Qaydası**

1. Ümumi müddəalar

1.1. Bu qayda sənaye parklarının və məhəllələrinin nailiyyətlərinin qiymətləndirilməsi ilə bağlı məsələləri tənzimləyir.

1.2. Sənaye parklarının və məhəllələrinin nailiyyətləri aşağıdakı indikatorlar əsasında qiymətləndirilir:

- sənaye parkında (və ya məhəlləsində) açılmış yeni iş yerlərinin sayı;
- yerli əmək resurslarından istifadə olunması;
- sənaye parkında (və ya məhəlləsində) müasir texnologiyaların və ya "nou-hau"ların tətbiqi;
- rezidentlər (iştirakçılar) tərəfindən sənaye parkına (və ya məhəlləsinə) qoyulan investisiyanın ümumi məbləği;
- sənaye parkının (və ya məhəlləsinin) ümumi məhsul buraxılışının əvvəlki hesabat dövrü ilə müqayisədə artımı (faizlə);
- işçilərin peşə hazırlığı səviyyəsinin yüksəldilməsi üzrə tədbirlərin görülməsi.

2. Qiymətləndirmənin aparılması

2.1. Qiymətləndirmə bu qaydanın əlavəsində göstərilən "Sənaye parklarının və məhəllələrinin nailiyyətlərinin qiymətləndirilməsi Cədvəli"nə uyğun olaraq aparılır (əlavə olunur).

2.2. Qiymətləndirmə 3 ballıq sistem üzrə aparılır. "Müsbət" nəticə - 3, "məqbul" nəticə - 2, "mənfi" nəticə – 1 bal ilə qiymətləndirilərək toplanılır və alınan cəm indikatorların sayına bölünərək yekun qiymət əldə olunur. Yekun qiymət 2,5-dən çox olarsa "müsbət", 1,8-2,5 arasında olarsa "məqbul", 1,8-dən az olarsa "mənfi" qiymətləndirilmiş hesab olunur.

Əlavə

**Sənaye parklarının və məhəllələrinin nailiyyətlərinin qiymətləndirilməsi**

**Cədvəli**

| № | İndikatorlar | Qiymətləndirmənin aparılması (1 illik dövr üzrə) | Mövcud vəziyyət | Qiymətləndirmənin nəticəsi |
|---|---|---|---|---|
| 1. | Sənaye parkında (və ya məhəlləsində) açılmış yeni iş yerlərinin sayı | Sənaye parkı üzrə açılmış yeni iş yerlərinin sayı 50-dən çox olarsa "müsbət", 10-50 arası olarsa "məqbul", 10-dək olarsa "mənfi" qiymətləndirilir. (Qaradağ Sənaye Parkı və Balaxanı Sənaye Parkı üzrə açılmış yeni iş yerlərinin sayı 30-dan çox olarsa "müsbət", 30-dək olarsa "məqbul", iş yerləri açılmamışdırsa "mənfi" qiymətləndirilir.)<br>Sənaye məhəllesi üzrə açılmış yeni iş yerlərinin sayı 10-dan çox olarsa "müsbət", 10-dək olarsa "məqbul", iş yerləri açılmamışdırsa "mənfi" qiymətləndirilir. | | |
| 2. | Yerli əmək resurslarından istifadə olunması | Sənaye parkının (və ya məhəllesinin) yerləşdiyi rayonun (şəhərin) yerli əhalisi işçilərin sayının 50%-dən çoxunu təşkil edərsə "müsbət", 10-50%-ni təşkil edərsə "məqbul", 10%-dən az hissəsini təşkil edərsə "mənfi" qiymətləndirilir. | | |
| 3. | Sənaye parkında (və ya məhəlləsində) müasir texnologiyaların və ya "nou-hau"ların tətbiqi | Sənaye parkı üzrə müasir texnologiyalar və ya "nou-hau"lar rezidentlərin (iştirakçıların) 50%-dən çoxu tərəfindən tətbiq edilirsə "müsbət", 20-50%-i tərəfindən tətbiq edilirsə "məqbul", 20%-dən azı tərəfindən tətbiq edilirsə "mənfi" qiymətləndirilir.<br>Sənaye məhəlləsi üzrə müasir texnologiyalar və ya "nou-hau"lar rezidentlərin (iştirakçıların) 40%-dən çoxu | | |

| | | | | |
|---|---|---|---|---|
| | | tərəfindən tətbiq edilirsə "müsbət", 40%-dən azı tərəfindən tətbiq edilirsə "məqbul", tətbiq edilmirsə "mənfi" qiymətləndirilir. | | |
| **4.** | Rezidentlər (iştirakçılar) tərəfindən sənaye parkına (və ya məhəllesinə) qoyulan investisiyanın ümumi məbləği | Sənaye parkı üzrə qoyulan investisiyanın ümumi məbləği 5 milyon manatdan çox olarsa "müsbət", 5 milyon manatadək olarsa "məqbul", investisiya qoyulmamışdırsa "mənfi" qiymətləndirilir. (Balaxanı Sənaye Parkı üzrə qoyulan investisiyanın ümumi məbləği 1 milyon manatdan çox olarsa "müsbət", 1 milyon manatadək olarsa "məqbul", investisiya qoyulmamışdırsa "mənfi" qiymətləndirilir.)<br>Sənaye məhəllesi üzrə qoyulan investisiyanın ümumi məbləği 300 min manatdan çox olarsa "müsbət", 300 min manatadək olarsa "məqbul", investisiya qoyulmamışdırsa "mənfi" qiymətləndirilir. | | |
| **5.** | Sənaye parkının (və ya məhəllesinin) ümumi məhsul buraxılışının əvvəlki hesabat dövrü ilə müqayisədə artımı (faizlə) | Sənaye parkının (və ya məhəllesinin) ümumi məhsul buraxılışının əvvəlki hesabat dövrü ilə müqayisədə artımı 10%-dən çox olarsa "müsbət", 10%-dək olarsa "məqbul", artım olmadığı halda "mənfi" qiymətləndirilir. | | |
| **6.** | İşçilərin peşə hazırlığı səviyyəsinin yüksəldilməsi üzrə tədbirlərin görülməsi | İşçilərin peşə hazırlığı səviyyəsinin yüksəldilməsi ilə bağlı tədbirlərin sayı 2-dən çox olarsa "müsbət", 2-dək olarsa "məqbul", tədbir həyata keçirilməmişdirsə "mənfi" qiymətləndirilir. | | |
| **Yekun qiymət** | | | | |